Azərbaycan.- 2021.- 24 aprel. S. 3.

# Ukrayna Azərbaycanın işğaldan azad edilmiş ərazilərində infrastrukturun bərpasında maraqlıdır

Ukrayna Prezidenti Ofisi rəhbərinin müavini İqor Jovkva Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə onlayn məsləhətləşmələr aparıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Ofisinin rəsmi saytında bildirilir.

Tərəflər COVID-19 pandemiyasının yayılmasına qarşı mübarizə və vətəndaşların peyvəndlənməsi üzrə Ukraynada və Azərbaycanda görülən tədbirləri müzakirə ediblər. Prezident Ofisi rəhbərinin müavini Ukraynanın suverenliyinin və ərazi bütövlüyünün daim dəstəklənməsinə görə Azərbaycana təşəkkürünü bildirib.

Prezidentin köməkçisi Hikmət Hacıyev 2020-ci ildə təsdiq edilmiş Ukraynanın Milli Təhlükəsizlik Strategiyasında Azərbaycan Respublikasının Ukraynanın strateji tərəfdaşları siyahısına daxil edilməsini yüksək qiymətləndirib. O, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsində qətiyyətli mövqe tutan Ukraynaya təşəkkürünü bildirib.

Tərəflər Qarabağ regionunda təhlükəsizliklə bağlı cari vəziyyəti müzakirə edib, işğaldan azad olunmuş ərazilərdə infrastrukturun bərpasına Ukraynanın verə biləcəyi töhfə barədə fikir mübadiləsi aparıblar.

İqor Jovkva və Hikmət Hacıyev cari ildə yüksəksəviyyəli ikitərəfli dialoqla bağlı növbəti tədbirlər barədə razılığa gəliblər.